**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
ALİ ATTESTASİYA KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN
24 aprel 2026-cı il tarixli**

**QƏRARI**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 08 dekabr 2023-cü il tarixli qərarı ilə təsdiq edilmiş “Birdəfəlik dissertasiya şuralarının yaradılması məqsədilə qaldırılan vəsatətə əlavə edilməli olan sənədlərin siyahısı”nda aşağıdakı dəyişikliklər edilsin:

1. Şura üzvlərinə dair hissə üzrə siyahının 7-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“7. Fəlsəfə doktoru və elmlər doktoru avtoreferatlarının üz qabığının surətləri.”.

2. Dissertasiya müdafiəsinin təşkili məqsədilə barəsində vəsatət qaldırılan iddiaçıya dair hissə üzrə:

2.1. Siyahının 4-cü bəndi 6-cı bənd hesab edilsin və aşağıdakı məzmunda 4-cü və 5-ci bəndlər əlavə edilsin:

“4. İddiaçının doktoranturaya qəbulu və ya dissertant təhkim olunması haqqında qərarın (əmrin) surəti;

5. Dissertantlıq yolu ilə təhsil alan iddiaçıların təhkim olunduqları zaman əsas iş yerləri və elmi və ya elmi-pedaqoji iş stajlarına dair arayış;”;

2.2. Siyahının 7-ci bəndi 9-cu bənd hesab edilsin və aşağıdakı məzmunda 7-ci və 8-ci bəndlər əlavə edilsin:

“7. Fəlsəfə doktoru imtahanları üzrə onların nəticəsini özündə əks etdirən müvafiq şəhadətnamələrin surəti;

8. Dissertasiya işinin ilkin müzakirəsinin keçirildiyi iclasın geniş protokolundan çıxarış;”.

Azərbaycan Respublikasının Prezidenti
yanında Ali Attestasiya Komissiyası
Rəyasət Heyətinin 08.12.2023-cü il tarixli qərarı
ilə təsdiq edilmiş, 24.04.2026-cı il tarixli qərarı
ilə əlavə və dəyişikliklər edilmişdir.

**Birdəfəlik dissertasiya şuralarının yaradılmasına dair vəsatətə əlavə edilməli olan sənədlərin siyahısı**

*Şura üzvlərinə dair:*

1. “Dissertasiya şuralarının yaradılması və fəaliyyətinin təşkili barədə Təlimat”a Əlavə 1.1. və 1.1.1. formaları;
2. Üzv olmaq üçün razılıq məktubu;
3. Şəxsiyyət vəsiqəsinin surəti;
4. Elmi dərəcə haqqında diplomların surəti (elmi dərəcələr fərqli elm sahəsi və ixtisas üzrə olduğu halda hər iki diplomun surəti);
5. Elmi ad haqqında attestatların surəti (elmi adlar fərqli elm sahəsi və ixtisas üzrə olduğu halda hər iki attestatın surəti);
6. AMEA-nın həqiqi və ya müxbir üzvlüyü haqqında sənədin surəti;
7. Fəlsəfə doktoru və elmlər doktoru avtoreferatlarının üz qabığının surətləri.

*Dissertasiya müdafiəsinin təşkili məqsədilə barəsində vəsatət qaldırılan iddiaçıya dair:*

1. Şəxsiyyət vəsiqəsinin surəti;
2. Əmək kitabçasının təsdiq olunmuş surəti;
3. İddiaçının şəxsi məlumat vərəqi;
4. İddiaçının doktoranturaya qəbulu və ya dissertant təhkim olunması haqqında qərarın (əmrin) surəti;
5. Dissertantlıq yolu ilə təhsil alan iddiaçıların təhkim olunduqları zaman əsas iş yerləri və elmi və ya elmi-pedaqoji iş stajlarına dair arayış;
6. Mövzunun təsdiqi barədə elmi müəssisə və təşkilatların, ali təhsil müəssisələrinin elmi (elmi-texniki) şuralarının və Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının qərarlarının surəti;
7. Fəlsəfə doktoru imtahanları üzrə onların nəticəsini özündə əks etdirən müvafiq şəhadətnamələrin surəti;
8. Dissertasiya işinin ilkin müzakirəsinin keçirildiyi iclasın geniş protokolundan çıxarış;
9. Elmi əsərlərin təsdiq olunmuş siyahısı;
10. Beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə (bazalarına) daxil olan dövri elmi nəşrlərdə dərc olunmuş məqalələrinin surəti;
11. Xarici ölkələrdə dərc olunmuş konfrans materiallarının surəti;
12. Elmlər doktoru iddiaçıları üçün fəlsəfə doktoru avtoreferatının üz qabığının surəti.

**Qeyd:**

**Əvvəllər dissertasiya şurasının üzvü olmuş və bu Qərarla müəyyən edilən sənədləri Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim edilmiş üzvlərin məlumatlarında hər hansı dəyişikliklər olmadıqda, həmin üzvlərə münasibətdə sənədlərin yenidən təqdim edilməsi zəruri hesab edilmir.**